Respublika.- 2019.- 31oktyabr.- S.6

# Sumqayıt 70 ildə

2019-cu il noyabrın 22-də Sumqayıt şəhərinin şəhər adı almasının 70 ili tamam olur. Hazırda şəhərin əhalisi 340 mindən artıq, ərazisi 94,17 kv. km-dir. Sumqayıt şəhəri Abşeron yarımadası, Xəzər dənizinin qərb sahili boyunca düzənlik sahədə yerləşir. Hacı Zeynalabdin və Corat qəsəbələri şəhər tabeliyindədir. Hazırda Sumqayıt şəhərində 3 ali məktəb, 7 klub, 8 mədəniyyət evi, 5 musiqi və incəsənət məktəbi, 49 orta məktəb, 57 məktəbəqədər tərbiyə müəssisəsi, 7-dən artıq dövlət xəstəxanası olmaqla yanaşı, bir çox poliklinika və özəl səhiyyə ocaqları, idman klub və mərkəzləri, o cümlədən bir çox müəssisələr, zavodlar, fabriklər, müxtəlif idarələr və s. fəaliyyət göstərir.

Sumqayıt şəhərinin adının mənşəyi ilə bağlı bir neçə mülahizə, fikir söylənilir. Bunlardan biri "Sum qayıt" əfsanəsidir. Bu əfsanəyə görə, uzaq ellərdən gələn dəvə karvanları bu yerlərdən keçərmiş. Günlərin bir günü bir karvan bu ərazidə olduqları zaman onların su ehtiyatı bitir, yəni suları tam qurtarır. Susuzluğa davam gətirə bilməyən karvan sahibləri arasında bir-birlərini çox dərin məhəbbətlə sevən Sum adlı bir cavan oğlan və Ceyran adında bir qəşəng qız da varmış. Bu iki gənc də hamı kimi susuzluqdan yanırmış. Bir tərəfdən də, qızmar günəş altında qumlu səhrada yerimək Ceyranı lap taqətdən salır. Sum sevgilisinin susuzluğa dözə bilmədiyini görüb su axtarmaq qərarına gəlir və Ceyrana deyir:

- Ya ölərəm, ya da sənə su taparam. Burada məni gözlə.

Sum karvandan aralanıb gedir. Lakin, sevgilisinin fəlakətlə qarşılaşacağını görən və hiss edən Ceyran onun dalınca qışqırır:

- Sum qayıt. Sum qayıt. Sum qayıt!..

Digər bir versiya isə, Sumqayıt çayla əlaqədardır. Yəni, şəhərdən bir az şimalda axan çayın adı ilə bağlıdır. Çay quraqlıq vaxtı tamamilə quruyur. Çayın Xəzər dənizinə axmayıb, geri qayıtdığına görə ona qədim türkdilli tayfalar "Su qayıdan çay" deyirlərmiş. Sonradan salınmış şəhərin adı, Sumqayıt məhz bununla bağlıdır.

Hələ 23 may 1877-ci ildə Böyük Britaniyada nəşr olunan "The York Heralt" qəzetində belə Sumqayıtın adı çəkilir. Yazıda qeyd olunur ki, "Sumqayıtdan, yaxud Bakıdan Tiflisə yaxşı yol mövcuddur, Tiflisdən isə İrəvana".

Rus yazıçısı Semyon Bronevski 1823-cü ildə "Qafqaz haqqında ən yeni coğrafi və tarixi xəbərlər" adlı kitabında yazır: "Bakı xanlığı demək olar ki, Abşeron yarımadasında yerləşir, şimalda Quba mülkü ilə sərhəddir ki, ondan Suqayıt çayı ilə ayrılır"...

Sovet dönəmində ittifaq rəhbərliyi Abşeron yarımadasını ağır sənaye mərkəzinə çevirmək qərarına gəlir. Bu məqsədlə Abşeronda ikinci bir sənaye mərkəzi planlaşdırır. İlk tikinti işləri 1938-ci ildə başlasa da İkinci Dünya müharibəsinin başlanması ilə əlaqədar olaraq şəhərin tikintisi dayandırılır. Əsas tikinti işləri 1944-cü ildə yenidən bərpa olunur. Şəhərin tikintisi zamanı qazıntı işləri görülərkən, torpağın altında qədim yaşayış məntəqəsinin və karvansarayın qalıqlarına rast gəlinir. Şəhərin tikintisində azərbaycanlılarla yanaşı, İkinci Dünya müharibəsində əsir düşmüş almanlar da işlədilir. Belə ki, 1938-ci ildə, indiki İstilik Elektrik Stansiyasının yerində inşaatçılar və fəhlələrə yaşayış üçün ilk baraklar quraşdırılır və məntəqənin tikintisi başlanılır.

1939/40-cı illərdə sintetik kauçuk, boruyayma və kimya zavodlarının bünövrəsi qoyulur. Sonra Böyük Vətən müharibəsinin başlaması ilə əlaqədar olaraq bütün tikinti işləri dayandırılır. 1941-ci ildə İstilik Elektrik Stansiyası işə düşür və Bakının Neft sənayesi üçün ilk elektrik cərəyanı verilir. 1944-cü ildə Kimya və Metallurgiya zavodunun tikintisi başlayır. 1945-ci ildə Sumqayıt kimya zavodu ilk məhsulunu istehsal edir və bununla da Sumqayıtda tikinti işləri çox sürətlə artır. 1948-ci ildə sənaye şəhəri Sumqayıtın baş planı, SSRİ-nin mərkəzi olan Moskva şəhərindəki Layihə institutlarından birində hazırlanır. Şəhərin yaşayış zonasının tikinti planı isə Azərbaycan Dövlət Baş Layihə İnstitutu tərəfindən layihələşdirilir. 1949-cu ildə Azərbaycan SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı ilə Sumqayıta şəhər statusu verilir. İstilik Elektrik Stansiyasının yanında balaca bir qəsəbə kimi salınan Sumqayıt çox qısa müddət ərzində böyük bir sənaye mərkəzinə çevrilir. 1952-ci ildə Sumqayıt "Boruyayma" zavodu ilk məhsulunu verir. Bununla da, Azərbaycanda demək olar ki, qara metallurgiya sənayesinin əsası qoyulur. Və bununla yanaşı olaraq həmin il "Sintetik kauçuk zavodu" işə başlayır. İlk dəfə olaraq neftdən Etil spirti əldə edilir. 1953-cü ildə Marten (poladəritmə) sobalarında ilk poladəritmə, 1955-ci ildə "Sumqayıt Alüminium Zavodu" işə düşür.

1957-59-cu illərdə Elmi-Tədqiqat institutları, mədəniyyət mərkəzləri tikilir və şəhər infrastrukturu inkişaf etdirilir. 1960-cı ildə Sumqayıtda Avropanın ən böyük neft-kimya kombinatının tikintisinə başlanılır. 1961 və 1968-ci illərdə bir-birinin ardınca yeni-yeni müəssisələr yəni, "Kərpic zavodu", "Superfasfat zavodu", "Polimer tikinti materialları kombinatı" tikilərək öz istehsallarını buraxmağa başlayırlar. 1970-1980-ci illərdə yüngül və maşınqayırma sənayesi inkişaf edir.

Beləliklə, Sumqayıt şəhərinin əhalisi azərbaycanlılarla yanaşı, bir çox respublikaların xalqları, yəni, rus, ukraynalı, tatar, yəhudi, gürcü, avar, udin, üzüqara nankor ermənilər və digər millətlərin nümayəndələrindən təşkil olunur. Məhz ona görə də Sumqayıtın girəcəyində, SSRİ-nin tərkibində olan 15 respublikanın hər birinin tikintidə iştirakını ifadə etmək üçün rəmzi olaraq 15 ədəd kərpic spital şəklində üst-üstə qoyulur, onların üzərində göyərçin qanadları quraşdırılır ki, bu abidə də şəhərin simvolu olur. Şəhərin daxilində isə göyərçin abidəsi sülh rəmzi olaraq quraşdırılır.

Onu da xatırlatmaq istəyirəm ki, Sumqayıt Azərbaycan şəhərlərinin içində ən fəlakətli ətraf mühitə malik olmuşdur. Orta hesabla hər il havaya min tonlarla zərərli maddələr buraxılıb. Alüminium zavodu şəhərin 2 km-də yerləşib və bu zəhərli maddələrin çox bir payı bu zavoda düşüb. Bundan başqa, Sumqayıt şəhərinin ekologiyasının pozulmasında Kimya sənaye İstehsalat Birliyinin də böyük rolu var. Sumqayıt yeganə şəhər olubdur ki, 3 müəssisədə xlor istehsal edilib. Havaya atılan zərərli maddələr külək vasitəsi ilə bütün şəhəri bürüyüb. Şükürlər olsun ki, Sovetlər Birliyindən ayrıldıqdan sonra, ümummilli liderimiz Heydər Əliyevin səyi və siyasəti nəticəsində Azərbaycanımızın hərtərəfli inkişafı, o cümlədən Sumqayıt şəhərinə yetirdiyi diqqət və qayğı sayəsində o, bu gün onun davamçısı olan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və sərancamları əsasında, Azərbaycanın hər bir bölgəsində olduğu kimi, Sumqayıt şəhəri də hərtərəfli inkişaf etmiş və hazırda da, inkişaf etməkdədir. Bu gün Sumqayıt şəhərinin hərtərəfli inkişafı, ekoloji cəhətdən təmizlənməsi və gözəlləşməsi sayəsində bir çox inkişaf etmiş dünya və Avropa dövlətləri tərəfindən də tanınmaqdadır. Bu gün Sumqayıt şəhərinə, Heydər Əliyev məktəbinin davamçısı olan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2015-ci ildə təyin edilmiş icra hakimiyyətinin başçısı Zakir Fərəcovun gördüyü işlər danılmazdır. Buna sübut olaraq, saymaqla bitməyən misallar və faktlar göstərmək mümkündür. Məsələn, Sovetlər Birliyindən, necə deyərlər "ştanbovka" şəklində olan binaların ağlay daşla üzlənməsi, rənglənməsi, damlara metal örtüklər vurulması, ucamərtəbəli binaların liftlərinin tamamilə yenilənməsi, köhnə yolların və magistralların təmiri və tam şəkildə asfalt qatının vurulması, şəhərə giriş-çıxış olan əlavə yolların salınması, bir-birindən gözəl olan, gözoxşayan yeni-yeni binaların (göydələnlərin) tikilməsi, şəhərin hər bir məhəllə və mikrorayonlarının çil-çıraqla işıqlandırılması, hər tərəfin yaşıllaşdırılması, təhsil, səhiyyə ocaqlarının, musiqi və incəsənət məktəblərinin, idman və mədəniyyət klublarının təmiri və yenilərinin tikilməsi, illərlə təmirsiz və acınacaqlı şəraitdə olan dəmiryollarının və Dəmiryol Vağzalının müasir formada təmir olunması və istifadəyə verilməsi, parkların təmiri, dənizkənarı park-bulvarın salınması və s. kimi görülən işləri əyani sübut olaraq göstərmək olar. Bu gün Sumqayıt şəhərində, Xəzər dənizinin sahili boyu uzanan, yeni salınan və gözəlliyi ilə gözoxşayan ucsuz-bucaqsız Bulvar insanların istirahət və görüş yerinə çevrilmişdir. Hazırda da, sahilboyu tikinti işləri davam etdirilməkdədir. Başqa şəhərlərdən, qəsəbələrdən və kəndlərdən gələn insanlar, şəhərin qonaqları üçün bu gözəlliyi, yaşıllığı, genişliyilə seçilən park-bulvar əsl istirahət yeridir.



Şəhərin belə gözəlləşməsində və inkişafında Sumqayıt şəhərində fəaliyyət göstərən müəssisə və təşkilatların zəhməti vardır. Sumqayıt Sukanal İdarəsi rəhbərliyinin və kollektivinin şəhərin **70 illiyi** ilə əlaqədar gördüyü işlər çox böyükdür. Hazırda Sumqayıt şəhərində 1364 yüksəkmərtəbəli bina vardır ki, bunun da 825-dən çoxu zirzəmisi olan yüksəkmərtəbəli binalardır. "Azərsu" ASC rəhbərliyinin göstəriş və tapşırığı nəticəsində, 600-dən artıq yüksəkmərtəbəli binanın zirzəmisindən içməli su xətləri Sumqayıt Sukanal İdarəsi tərəfindən pilləkən qəfəslərinə çıxarılmış və sayğaclaşdırılmışdır. Çirkab su və yağışqəbuledici xətlər tamamilə təmizlənmiş, təmir edilmiş, lazımi yerlər yenilənmiş, yüksəktəzyiqli maşınla yuyulmuşdur. Bütün şəhərin ərazisi bu gün demək olar ki, 24 saat içməli su ilə təmin edilir. Şəhər əhalisinin məmnunluğu çox yuxarı faiz təşkil edir. Hər bir abonentin şikayəti dinlənilərək Sumqayıt Sukanal İdarəsinin rəisi İlqar Abdullayevin nəzarəti altında hər bir şöbədə yerindəcə öz həllini tapır. Şəhərdə texniki su olmadığından, bütün şəhər ərazisinin suvarılması, yeni yaşıllığının, gözəlliyinin qorunması naminə, min-bir əzab və zəhmət hesabına başa gələn içməli su ilə təmin edilir. Hətta, çox böyük həcmli suvarma su anbarları da tikilmişdir ki, bu da bu gün Sumqayıt Sukanal İdarəsi tərəfindən nəzarətdə saxlanılaraq su ilə təmin edilir. Bütün məhəllələr və mikrorayonlar üçün növbətçi maşın və briqadalar ayrılıb ki, bunlar da 24 saat əhalinin qulluğundadırlar.

Bundan əlavə olaraq, Sumqayıt şəhərindən bir çox tanınmış şəxslər çıxmışdır ki, bunlardan biri də cüdo üzrə paraolimpiya idmançımız İlham Zəkiyevdir. Xatırladım ki, dünyada tanınmış bir idmançı kimi Yaponiyanın Tokio şəhərində, "Tanınmış Dünya İdmançıları" muzeyində, dünya idmançıları cərgəsində dünyanın ilk paraolimpiyadaçı cüdoisti kimi onun şəkli də vurulmuşdur. Bu gün Sumqayıt şəhərinin idmançıları, dünyanın bir çox ölkələrində Azərbaycan Respublikasının Bayrağını bütün bayraqlardan yuxarı qaldıraraq, Azərbaycan Himnini oxutmaqla Azərbaycanımızı və millətimizi bütün dünyaya tanıtdılar. Sumqayıt Rafael Ağayev kimi karateçi, Şəhriyar Məmmədyarov kimi şahmatçı, Zülfü Hacıyev, Elçin Quliyev, Kamran Hüseynov, Kamal Axundov, Şakir Abışov, Cahangir Müslümzadə, Zakir Fərəcov və s. kimi saymaqla bitməyən ziyalılar yetirmişdir.

Bu gün Sumqayıt şəhərinin hərtərəfli, belə sürətlə inkişafı onun daha parlaq gələcəyini açıq-aydın göstərməkdədir, onun böyük bir turizm şəhərinə çevriləcəyindən xəbər verir. Sumqayıt hazırda dünyanın və Avropanın bir çox inkişaf etmiş böyük şəhərləri tərəfindən tanınmaqda və dostluq əlaqələri yaratmaqdadır. Bir sözlə, mən bütün sumqayıtlıları uşaqdan tutmuş böyüyə, fəhlədən tutmuş ziyalıya kimi hər bir vətəndaşını Sumqayıt şəhərinin 70 illik yubileyi münasibətilə təbrik edirəm. İnanıram ki, Sumqayıt şəhərinin adı, gələcək nailiyyətləri bundan sonra da sözün yaxşı mənasında bütün dünyaya səs salacaqdır.

***Əmrah SÖYLƏMƏZLİ,***
***AssA İradə Beynəlxalq Xəbər Agentliyinin xüsusi müxbiri.***